Ədalət .-2026. -20 fevral(№7).- S.16.

# İstanbulun mozaika irsini Zeytinburnu Mozaika Muzeyində kəşf edin

**Qədim dövrlərə aid döşəmə və divar mozaikaları təkcə dekorativ element deyil, həm də öz dövrünün sosial həyatı, estetik dünyagörüşü və mifoloji təsəvvürləri haqqında qiymətli məlumat mənbəyidir. Minilliklər boyu saysız-hesabsız sivilizasiyalara ev sahibliyi etmiş Türkiyə dünyanın ən nadir və ən zərif mozaika nümunələrindən bəzilərini qoruyub saxlayır. Bu zəngin irs ölkə boyu tarixi məkanları sanki açıq səma altında sənət qalereyasına çevirir.**

İndi isə bu nadir irsi İstanbulun mərkəzində, şəhərin ən yeni muzeylərindən birində yaxından görmək mümkündür. Tarix bəzən gözlənilməz məkanda üzə çıxır. Şəhərin tarixi qala divarlarından kənarda yerləşən və ən böyük mozaika sahələrindən birinə ev sahibliyi edən Zeytinburnu Mozaika Muzeyi mədəniyyət həvəskarları üçün ideal məkandır. Muzey İstanbulun zəngin keçmişinə fərqli və təsirli bir baxış təqdim edir. Hazırda Kazlıçeşmə Sənət Mərkəzi kimi fəaliyyət göstərən, tarixi hərbi hospital binasında yerləşən muzey paytaxtın mühüm mədəni yerlərindən biridir. Burada nümayiş etdirilən mozaikalar 2015-ci ildə aparılan bərpa işləri zamanı, təxminən 1,5 metr dərinlikdə aşkar edilib.

Tapıntıdan dərhal sonra abidələr mühafizə altına alınıb. 2019-cu ildə isə döşəmədə müşahidə olunan həndəsi naxışların daha geniş sahəyə yayıla biləcəyi ehtimalı ilə İstanbul Arxeologiya Muzeylərinin nəzarəti altında sınaq qazıntılarına başlanılıb. Qazıntılar mozaikaların davam etdiyini təsdiqləməklə yanaşı, iki nəfərin qalıqlarının yerləşdiyi iri mərmər sarkofaqın da üzə çıxmasına səbəb olub. Bu gün muzeydə mozaikalar məhz tapıldıqları orijinal kontekstdə nümayiş etdirilir. Ziyarətçilər tarixi abidələri öz ilkin mühitində görmək imkanı əldə edir, eyni zamanda digər arxeoloji artefaktlarla da yaxından tanış olurlar. Zeytinburnu rayonunda yerləşən, Osmanlı dövrünə aid qırmızı kərpicli



və zövqlə bərpa edilmiş bina ziyarətçiləri geniş mozaika sahələri ilə qarşılayır. Orijinal mozaikaların üzərində qurulmuş şüşə platforma vasitəsilə "opus tessellatum" texnikası ilə işlənmiş nadir nümunələri yuxarıdan seyr etmək mümkündür. IV-V əsrlərə aid olduğu və yerli Roma villasının bir hissəsi sayıldığı ehtimal edilən çoxrəngli mozaikalar həndəsi naxışlar, ulduz motivləri, çoxbucaqlı kompozisiyalar və bitki ornamentləri ilə zəngindir. Bu zərif kompozisiyalar Erkən Roma və Erkən Şərqi Roma dövrünün incəsənət üslubunu əks etdirir və ziyarətçiləri İstanbulun çoxqatlı tarixində sakit, lakin təsirli bir səyahətə aparır. 190 kvadratmetrdən çox sahəni əhatə edən mozaikalarla yanaşı, muzeydə aşkar edilmiş digər arxeoloji tapıntılar da böyük maraq doğurur.

Mərmər sarkofaq, kərpicdən inşa edilmiş məzar strukturu və insan qalıqları ekspozisiyanın ən diqqətçəkən nümunələrindəndir. Müxtəlif əsrlərə aid terrakota qablar və sikkələr isə bu ərazidə həyatın uzun müddət fasiləsiz davam etdiyini sübut edir. Zeytinburnu Mozaika Muzeyi yalnız arxeoloji məkan deyil. Kitabxana, sərgi zalları və digər mədəni bölmələri ilə kompleks bölgənin mədəni həyatını canlandıran çoxfunksiyalı mərkəz kimi fəaliyyət göstərir.

Muzey bazar ertəsi istisna olmaqla həftənin bütün günləri saat 10:00-dan 18:00-dək ziyarətçilərin üzünə açıqdır. Buraya hər səfər yadda qalan təəssürat yaradır və bu unikal irsi yenidən kəşf etmək arzusu oyadır.

**Sübhan**